# AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI

## QƏRAR № 13

**Bakı şəhəri, 28 noyabr 2016-cı il**

**“Azəristiliktəchizat” ASC tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2011-ci il 24 noyabr tarixli 4 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə”yə və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli qərarı ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 467 nömrəli Qərarına uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR**:

1. “Azəristiliktəchizat” ASC tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2011-ci il 24 noyabr tarixli 4 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissənin cədvəl bölməsinin 2-ci sətri çıxarılsın;

1.2. 2-ci hissə çıxarılsın;

1.3. 5-ci hissədə “və isti su xidmətləri” sözləri “xidməti” sözü ilə əvəz edilsin.

2. Bu qərar 2017-ci il 1 yanvar tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**